İPƏK YOLU, No.1, 2019, səh.71-77

# 1920-30-cu İLLƏRİN İDEOLOJİ SİSTEM DƏYİŞİKLİYİ VƏ ƏDƏBİ PROSES

**Aynur Həsənova**

Azərbaycan Universiteti, Bakı, Azərbaycan
e-mail: aynur.hasanova@au.edu.az

**Xülasə.** Məqalədə XX əsrin əvvəllərində Azərbaycanda baş vermiş siyasi-ideoloji dəyişikliyin mədəniyyətimizə, o cümlədən ədəbiyyatımıza olan təzyiqinin səbəbləri araşdırılır. Yeni ideologiyanın köhnə irsə təcavüzkar münasibətində hansı amillərin olması və həmin dövrün ədəbi müzakirələrində nə kimi yer alması məqalədə göstərilir. Milli-mənəvi dəyərlərimizə tara, muğama, əlifbamıza, o cümlədən klassik irsimizə münasibətin həmin dövrün mətbuatında ziddiyyətli mövqe daşıması üzə çıxarılır.

**Açar sözlər**: incəsənət, humanitar, ədəbiyyat, tənqid, proletar.

**IDEOLOGICAL SYSTEM CHANGE AND LITERARY PROCESS OF 1920-1930**

**Aynur Hasanova**
*Azerbaijan University, Baku, Azerbaijan*

**Abstract.** The article deals with the reasons of pressure of political and ideological change to our culture, including our literature in Azerbaijan in the beginning of the XX century. The article mentions the factors that make up the new ideology's aggressive attitude to the old heritage and its place in the literary debate of that era. Contradictory position in the press of that period about the attitude to our traditional moral values such as tar, mugham, alphabet, as well as to our classic heritage is appeared.
**Keywords**: arts, humanitarian. literature, criticism, proletariat.

**ИЗМЕНЕНИЕ ИДЕОЛОГИЧЕСКОЙ СИСТЕМЫ 1920-30-х ГОДОВ И ЛИТЕРАТУРНЫЙ ПРОЦЕСС**

**Айнур Гасанова**
*Университет Азербайджан, Баку, Азербайджан*

**Резюме.** В статье разъясняются причины давления политико-идеологических изменений на культуру и литературу в Азербайджане в начале XX века. Описывается отношении между прошлой и новой литературной идеологией, а также место этой идеологии в литературных дискуссиях того времени. Также обсуждается противоречивое отношение прессы того времени нашим национально моральным ценностям, как наш тар, мугам, алфавит и классическое наследие.
**Ключевые слова:** искусство, гуманитарные науки, литература, критика, пролетариат.

Elmlə yanaşı incəsənət, o cümlədən ədəbiyyat dünyanı dərk etmənin formasıdır. Hələ antik dövrdə Roma şairi Horatsi göstərirdi ki, poeziyanın əsas vəzifəsi insanın zövqünü oxşamaqla yanaşı həmçinin faydalı olmaqdır. O dövrdən uzun zaman keçdiyinə və ədəbiyyatda köklü dəyişikliklər baş verdiyinə baxmayaraq bu gün də ədəbiyyat insanların zövqünü oxşamaqla yanaşı cəmiyyətin inkişafı prosesində müəyyən müsbət dəyişikliklərə nail olmağa can atır.

Ədəbiyyat insanların zövqünü oxşamaqla kifayətlənmir, eyni zamanda bu zövqün gözəllik qanunlarına uyğun şəkildə kamilləşməsini nəzərdə tutur. Lakin insanın zövqünü kamilləşdirmək öz-özlüyündə ədəbiyyatın yeganə vəzifəsi deyil. Ədəbi əsər bununla yanaşı, yəni estetik zövq verməklə yanaşı, həmçinin yüksək mənəviyyatlı və əxlaqlı insan

yetişdirmək məsələsini həll etməlidir. Deməli, bədii nümunə ilə yanaşı kamil estetik zövqə və yüksək mənəvi-əxlaqi dəyərlərə malik insan yetişdirmək ədəbiyyatın əsas vəzifəsidir.

Ədəbiyyatın bu iki vəzifəsi arasında əlaqə pozulanda ədəbi proses cəmiyyətdə öz vəzifəsini həyata keçirə bilmir. Belə ki, XIX əsrin ikinci yarısında bir sıra qərb ölkələrində "sənət sənət üçündür" prinsipi elan olunmuşdu. Bu o demək idi ki, ədəbiyyat yalnız estetik dəyərlər yaradan və oxucuya aşılayan bir quruma çevrilir və əxlaqi dəyərlər formalaşdırmaqdan imtina edir.

Oktyabr çevrilişindən sonra SSRİ-də ədəbiyyat partiyalı elan olundu və sosializm quruculuğunda fəal şəkildə iştirak etmək ədəbi əsərlərin yeganə vəzifəsi idi. Nəticədə ədəbiyyat nəinki yüksək bədii-estetik keyfiyyətlərə malik əsərlər yarada bilmədi, eyni zamanda saxta və yalançı sosial-ideoloji prinsiplərdən çıxış etdiyinə görə şüurlu vətəndaşlar yetişdirmək vəzifəsini həyata keçirə bilmədi.

Dünyanı proletar diktaturasının hakimiyyəti altında birləşdirmək cəhdindən ("Bütün dünyanın proletarları birləşin!") çıxış edən SSRİ-nin imperiya iddiası daha artıq düşünülmüş mədəni-ideoloji konsepsiyaya əsaslanırdı. Zahirən bu mədəni konsepsiya Fransa burjua inqilabının irəli sürdüyü "Qardaşlıq", "Bərabərlik", "Azadlıq" şüarlarını tarixi inkişafın yeni burumunda gerçəkləşdirməyə yönəlmişdi. Burada lap əvvəldən imperiya ideologiyasının mədəniyyətə radikal-ekstremist münasibətinin mövcudluğu haqqında danışmaq lazımdır. Belə ki, keçən əsrin 20-ci illərində bolşevik Rusiyasında mövcud olmuş Proletkult tipli təsisatlar bütün klassik mədəniyyəti dağıtmağı və onun xərabəzərliyi üzərində tamamilə yeni proletar mədəniyyətinin yaradılmasına qərar vermişdi. Məhz bu ideologiyanın tribunası olaraq Bakıda "Əxbar", "Haqq", "Zəhmət", "Kommunist", "Zəhmət sədası", "Azərbaycan füqarası", "Hürriyyət", "Gənc işçi", rus dilində "Nabat", "Molot", "Proletari", "Raboçaya pravda " və s. kimi mətbuat orqanları fəaliyyət göstərirdilər. Bu baxımdan 1920-30-cu illərdə Azərbaycanda mədəniyyət, ədəbiyyat və incəsənət son dərəcə mürəkkəb ictimai-siyasi şəraitdə formalaşmağa başlamışdı. Bu illərdə Cənubi Azərbaycanda və Türkiyədə fəaliyyət göstərən Demokratik Azərbaycan ədəbiyyatı da əslində sovet ideologiyasına xidmət edirdi. Oktyabr inqilabının təsiri Şeyx Məhəmməd Xiyabani, Seyid Cəfər Pişəvari, Mirzə Əli Möcüz, Mirzadə Eşqi və başqalarının yaradıcılığında özünü açıq-aydın büruzə verirdi. Eyni zamanda bu illərdə türk kommunistlərin orqanı "Yeni dünya ", "Aydınlıq" jurnalları Bakıda, "Qızıl Şərq" isə Moskvada çıxırdı. Türk kommunistlərin I qurultayı 1920-ci ildə Bakıda çağırılmışdı. Bu illərdə Azərbaycan ədəbiyyatında istər inqilabi-demokratik, istər proletar, istərsə də sovet ədəbiyyatının yaranması bilavasitə rus ədəbiyyatının təsiri ilə təşəkkül tapmışdı. İnqilabi ədəbiyyatın formalaşmasında partiya mətbuatının təsiri daha çox özünü büruzə verir. Partiya mətbuatında siyasi publisistika daha çox üstünlük təşkil edirdi. N.Nərimanov, S.C. Pişəvəri, Ə. Qəmküsar öz yaradıcılıqlarında cümhuriyyət ədəbi məktəbin nümayəndələrini işğalçı qismində tənqid edir, proletariatın mənafeyinə xidmət edirdilər [1]. Bu illərdə "Hümmət", "Məşəl", "Kommunist", "Gənc işçi", "Füqəra sədası", "Yoldaş",

“Hüriyyət”, “Azərbaycan füqərası”, “Bakı fəhlə, əsgər və matros şurasının əxbarı” və s. jurnal və qəzetlərin fəaliyyəti dövrün əsas mətbuatını müəyyənləşdirir. 1907-20-ci illərdə dramaturgiya sahəsində də ideoloji təzyiq bariz şəkildə özünü göstərir. “Səd-Vəqqas”(1917), “Yezid ibn –Müaviyə”(1919) kimi əsərlərə qarşı təzyiqlər güclənir, yeni tipli hakimiyyətin mənafeyini gücləndirən realist əsərlər yazılırdı. C.Cabbarlının yazdığı “Ədirnə fəthi”, “Trablis müharibəsi”, “Ulduz”, “Bakı uğrunda döyüş” əsərləri ciddi tənqidə məruz qalır və ondan yeni tipli dram əsərlərin yazılması tələb olunurdu. “Nəsrəddin şah” əsərinin bu illərdə meydana gəlməsi həmin dövrün mətbuatında mühüm hadisə hesab olunurdu. Cabbarlının bu əsərində demokratizm və xalq hərəkatı problemini ortaya qoyması və mütləqiyyətə qarşı çıxması təqdirəlayiq hal hesab olunurdu. Bu illərdə rus proletariatının təsiri, xüsusilə Petroqrad, Moskva, Kiyev və başqa iri sənaye mərkəzləri ilə həmrəy olan Bakı bolşeviklərinin fəaliyyəti Azərbaycanın digər bölgələrinə də yayılmışdı. Naxçıvan, Gəncə, Ağdam, Qazax, Şəmkir, Şamaxı və başqa qəzalarda bolşevizmin güclü təzyiqi hətta folklora da siyarət etmişdi. Qazax kəndlilərinin oxuduğu mahnılarda belə “Lenin” “proletariat” kəlməsi əksik olmurdu.

Gündü Kürün qırağı,
Söndü çarın çırağı
Leninlə birgə gəlir
Nərimanın sorağı -

tipli mahnılarda çarizmin devrilməsi ilə xoşbəxt gələcəyə inam hissi öz əksini tapmışdı. Xalq aşıqları arasında da bolşeviklərin gəlişini alqışlayanlar az deyildi. Onlar Sovet hakimiyyətinin qurulmasını, ümumiyyətlə, Azərbaycanda baş verən mürəkkəb siyasi hadisələri yaradıcılıqlarında əks etdirmişlər. Aşıqların I qurultayında Ruhulla Axundov çıxış etmiş aşıqların inqilabi nəğmələr oxumasının zəruriliyini qeyd etmişdir. Bu illərdə Azərbaycanda N. Nərimanovun başçılığı ilə bir sıra ədəbi –mədəni tədbirlər həyata keçirilirdi. Belə tədbirlərin birində “Bəzi yoldaşlara cavab” məqaləsində N.Nərimanov Puşkinin, Şekspirin, Şillerin yaradıcılıqlarının tədris olunmasını zəruri hesab edir, və “Lakin bu, hər şeydən əvvəl, həqiqi proletar şairi doğma Sabirin atəşin, mübariz şeirlərini, Vaqif, Zakir, Vidadinin əsərlərini bildikdən sonra edilməlidir” [2]. Bu baxımdan N. Nərimanovun klassik irsi qoruyub saxlanılması və onun yenidən oxunmasını aparıcı mövqedə saxlaması təqdirəlayiqdir.

Bu dövrün ən nüfuzlu tədbirlərindən biri də Bakıda Komminist İnternasionalı İcraiyyə Komitəsinin qərarı ilə Şərq xalqlarının I qurultayının (1920) çağırılması idi. Qurultay nümayəndələri Azərbaycanda yeni bərqərar olan inqilabi fəaliyyəti iftixar hissi ilə tərifləyir və yazıçıları da bu məzmunda əsərlər yazmağa sövq edirdilər. Azad düşüncə tərzini, demokratik meylləri demək olar ki məhv etməyə başlayan yeni hökümət öz möhkəmliyini ilk növbədə ideoloji təzyiq vasitəsilə həyata keçirməyə cəhd edirdi. Təsadüfi deyildi ki, yaradıcılığının ilk dövrlərində cəhalətdən, gerilikdən şikayət edən N. Vəzirov “Təzə əsrin ibtidası” əsərində “olmayıb Azərbaycanda elmi - tərbiyə, elmi – sənaye!” Kim bais olub bu müsibətə? Nikolayların siyasəti, ruhanilərinmizin təsiri... Qalmışdıq qaranlıqda, mədəniyyətdən məhrum. Hal-hazırda, şükürlər olsun, Şura hökumətinin dövlətindən bu saat

da Avropada yüzlərcə elm oxuyan yoldaşlarımız var" deyir [3, s.257]. Bu baxımdan qeyd etmək olar ki, 1920-ci ilin əvvəllərində Azərbaycanda ideoloji dəyişikliyi ruh yüksəkliyi ilə qəbul edən yazıçılar da var idi.

1920-30 cu illərdə klassik irsə də kommunist münasibət və onların yenidən tərcümə olunmasında da fəaliyyət öz əksini tapır. Klassik poeziyanın yeni sosialist görmə bucağından şərh və təqdim olunmasında xüsusi tədbirlər görülməyə başladı. Bu məqsədlə xüsusi ədəbi təşkilatların -"Azərbaycan zəhmətkeş Ədib və Şairlər İttifaqı"nın (1920), "Şairlər ittifaqı"nın (1922), "Ədəbiyyat cəmiyyəti"nin (1925), "Qızıl qələmlər İttifaqı"nın (1926), (1928) yaranması da bu dövrə təsadüf edir.

Bu dövrdə bütün ideoloji sahəni əhatə edən Kommunist Partiyasının qərarlarında partiyanın təzyiqi önəmli səciyyə daşıyırdı. Bir sıra qəzetlərdə partiya "cığırdaş" yazıçılara münasibətdə ehtiyatlı olmaq hökmünü irəli sürürdü.

Lenin proletkultçuların qurultayı üçün xüsusi qətnamə layihəsi hazırlamışdı. Həmin layihə əsasında "proletkultçulara cavab" məktubu hazırlanır və həmin qətnamə sovet platformasına keçidi təyinatını verdi. 1925-ci ildə xüsusilə gənclərdən ibarət dəstə "Kommunist" qəzeti ətrafında birləşərək Gənc Qızıl qələmlər Cəmiyyətini təşkil edirlər. Bu artıq fəhlə-kəndli sinfinin ədəbiyyatı idi. Bu dövrdə partiyanın siyasəti nəticəsində "Gənc Qızıl Qələmlər"lə "Ədəbiyyat Cəmiyyəti" gizli və ya açıq şəkildə bir-birilə rəqabət aparırdılar. Bu rəqabətin kökündə isə məlum olduğu kimi Şura hökumətinə yarınmaq, onun mənafeyinə qulluq etmək məqsədini güdürdülər.

Oktyabr inqilabından sonrakı illərdə yeni mədəniyyət problemi ən mühüm bir məsələ olaraq qarşıda dayanırdı. Yeni proletar mədəniyyətini bəşəriyyətin bütün canlı bədii təcrübəsindən təcrid etmək təşəbbüsləri müxtəlif formalarda fəaliyyət göstərirdi. Bədii irsə nihilist münasibət daha çox proletkultçuların və futuristlərin fəaliyyəti üçün səciyyəvi idi. Əslində ayrı –ayrı fərqli cəhətlərə sahib olan bu iki istiqamət eyni məqsədə xidmət edirdi. Klassik mədəniyyəti dağıtmaq rus futuristlərin ilk manifestində daha ucadan səslənirdi. Rus şairlərinin birinin əsərində "Sabahımız naminə, muzeyləri dağıdaq, incəsənət çiçəklərini tapdayaq" kimi misralar keçmişin sənətini köhnəlikdə, müasir əhəmiyyətini itirməkdə günahlandırırdı. Futurizmin bu əhval-ruhiyyəsi özünü bu və ya digər şəkildə 30-cu illlərin sonuna kimi də büruzə verirdi. 20-ci illərdə -Azərbaycan sovet poeziyasının ideya estetik prinsipləri daha çox spesifik məzmun daşıyırdı. Bu baxımdan həmin dövr ədəbiyyatşünaslığında poeziya haqqında üç müəllifin əsəri daha çox populyarlıq qazanmışdı. Onlardan biri Mustafa Quliyevin "Oktyabr və türk ədəbiyyatı" əsəridir. Bu kitab 1930-cu ildə çap edilmişdir. Kitabda yeni proletar ədəbiyyatının təşəkkülü, formalaşma prosesi izlənilmişdir. M. Quliyevdən sonra dövrün ədəbiyyatı bütün əsas janrları ilə nisbətən geniş təhlilini Mehdi Hüseynin "Ədəbi döyüşlər"kitabında (1932) tapmışdır. Üçüncü əsər Əli Nazimin "Proletar diktaturası dövründə Azərbaycan ədəbiyyatı"adlı elmi-tarixi hesab olunan oçerkləridir. Bu əsərlərdə Azərbaycan xalqının həyatında köhnəliklə yenilik arasındakı tarixi

mübarizənin real və mürəkkəb mənzərəsi öz əksini tapmışdır. Burada diqqəti cəlb edən əsas məsələ isə yeniyə və köhnəyə münasibət problemi idi. Yuxarıda qeyd etdiyimiz məsələ burada da – sosialist yenilik böyük bir ehtirasla müdafiə olunur, köhnəliyə qarşı isə tənqidi münasibət güclənirdi. M. Quliyev "müsəlman yaşayışı", "köhnəlik", "pədərşahlıq" əleyhinə mübarizənin zəruriliyini qeyd edirdi: "Oktyabr inqilabı köhnə Azərbaycanın çürük binasını sarsıtmışdı. Lakin mənhus keçmişi qəti surətdə kökündən devirmək üçün bir mədəni inqilab dövrü lazımdır" [4].

"Mədəni inqilab " anlayışını ilk dəfə Marks irəli sürmüşdü. "Mədəni inqilab" dedikdə o köhnə iqtisadi-siyasi əsasın aradan qalxmasına mane olan qüvvələrin aradan qaldırılmasını nəzərdə tuturdu. Onun fikrincə "ölüb getmiş nəsillərin ənənələri bir kabus kimi canlıların zehnini məşğul edirdi" [5, s.227]. Bu baxımdan ölkədə ciddi tədbirlər görülürdü. Məişət, əxlaq məsələlərini işıqlandıran, marksizm, leninizm ideyalarını yayan yeni kitablar çap edilir, ədəbi-bədii jurnallların da hamısı bu ideyalara xidmət göstərirdi. Bakıda Şərq qadınlarının da I qurultayı keçirilir (1921), teatr sənəti sürətlə inkişaf edirdi. Səhnə getdikcə inqilabi fikir və hislərinin tərcümanına çevrilirdi. Müasir həyat problemlərinin səhnəyə daxil olması, repertuarda getdikcə sovet ideologiyasının üstünlük kəsb etməsi nəticəsində milli teatr tədricən sovet teatrına çevrilirdi. Bir sözlə, 20-ci illərdə yeni cəmiyyətin sürətlə irəliləməsi nəticəsində sosialist şüuru xalq gerçəkliyinə ən dərin və güclü şəkildə nüfuz edirdi. 1920-32-ci illərin ədəbi tənqidini bu baxımdan nəzərdən keçirdikdə bu dövrdə köhnə ədəbi irsə qarşı vulqar, nihilist münasibətin pərakəndə halda intişar tapması məlum olur. Bu illərdə hələ vahid bədii konsepsiya, metodoloji əsas mövcud deyildi. Bəzi məqamlarda tənqid idealist estetika mövqeyindən çıxış edir, bu və ya digər klassikin yaradıcılığı, "sənət sənət üçündür" nəzəriyyəsi baxımından müdafiə olunurdu, digər məqamlarda isə tənqid çox vaxt klassik irsə ifrat sosioloji tələblər baxımından yanaşır, ədəbiyyatın spesifikası ilə hesablaşmır, onun bədii kateqoriyası da nəzərə alınmırdı. Belə hesab olunurdu ki, sinifli cəmiyyətdə ideologiya hakim təbəqənin görüşlər sistemindən ibarətdir, deməli, bədii ədəbiyyat da bu görüşlər sisteminin xüsusi bir forması olduğundan yeni cəmiyyətin tələblərini ödəyə bilməz. Klassiklərin də sinfi mənşələrinin təyin olunmasına xüsusi "əhəmiyyət" verilməsinin mənbəyi bununla bağlı idi.

Məlum olduğu kimi 20-ci əsrin əvvəllərində bir sıra Türkiyəli sənətkarlar Azərbaycanda çalışırdılar. Həmin müəlliflərin bədii yaradıcılığına aid yazılmış məqalələrdə, bir qayda olaraq sovet ədəbiyyatına toxunulmurdu, həmçinin orada müdafiə olunan ədəbi prinsiplər sosialist ədəbiyyatına zidd idi. Doktor Xəlil Fikrət "Sənət" adlı iqtibasla yazılmış məqalədə bədii əsəri ictimai şüurun deyil, hissin, səmimiyyətin, şüursuzluğun məhsulu kimi dəyərləndirirdi. Müəllifin qeyd etdiyinə görə: " İnsanların sənət qarşısındakı əlaqələri zövq ilə başlayaraq yenə də zövqdə xitam olur" [6, s.20].

Bu baxımdan 1920-32-ci illər ədəbi tənqidində Böyük Azərbaycan şairi Füzuliyə münasibət bir çox cəhətdən diqqəti cəlb edir. Füzulinin 400 illiyi münasibətilə buraxılmış kitabda ədəbi tənqidçi İsmayıl Hikmətin "Füzuli " adlı məqaləsi çap olunur. Məqalədə Füzuli poeziyasının bədii xüsusiyyətləri araşdırılır və lirik mənin könül fəryadı, fərdi həyəcanlarını

qabarıq şəkildə izah edilirdi. Bu məqalə həmin dövrün tənqidçiləri tərəfindən birmənalı şəkildə qarşılanmamış və ciddi narazılıqlara gətirib çıxarmışdır. Onu Füzulinin lirikasını düzgün qiymətləndirə bilməməkdə günahlandırmışlar. Çünki yeni ideologiyaya görə Füzulinin təsəvvüflə bağlılığı deyil onun zəmanəyə münasibəti, ictimai düşüncə tərzi ön plana çəkilməli idi. Qeyd olunurdu ki, cəmiyyətin inqilabi dönüş zamanında istər müasir hadisələrə, istərsə də tarixə münasibət mütləq dövrün ictimai-siyasi xarakterinə uyğun olmalıdır. Buna görə də İsmayıl Hikmət və onun kimi sovet ədəbiyyatının ideologiyasına xidmət etməyən müəlliflər həmin dövrün ədəbi tənqidində kəskin tənqid atəşinə tutulurdu. Digər proletar tənqidçilər isə ümuiyyətlə, Füzulini qəbul eləmir, məqalələrində də onun yaradıcılığını müasir gənclər üçün zərərli hesab edirdilər.

S. Rüstəm “ Mübarizə yollarında” adlı xatirəsində qeyd edir ki, 1922-ci ildə Sabirə həsr edilmiş gecə keçirilmişdir. Həmin gecə münasibətilə əksinqilabçılar “Yaşıl yarpaqlar” məcmuəsini hazırlamış və gizli olaraq məktəblilər vasitəsi ilə yaymağa çalışmışlar. Gecədə iştirak etməyə gələn N. Nərimanov, R. Axundov və yazıçı M.S. Ordubadi bunu bildikdə etirazlarını bildirərək müsamirəni tərk etmişlər. Bu hadisədən sonra M.S. Ordubadi R. Axundovun təşəbbüsü ilə məcmuənin əksinqilabi mahiyyətini ifşa edən məqalə yazmışdır. [7]. Göründüyü kimi əsrin əvvəllərində ədəbi tənqiddə birmənalı fikirlər olmamış dövrün totalitar düşüncə tərzinə qarşı fəal mübarizə aparmışlar.

1920-ci illərin ədəbi tənqidində xüsusi fəallıq göstərmiş M. Quliyev, Ə. Nazim, H. Zeynallı, M. Ələkbərli, A. Musaxanlı, M. Rəfili, M. Arif, M. Hüseyn və başqalarının məqalələri məhz sovet ideologiyasının prinsiplərinə xidmət edirdi.

Əslində bu müəllliflərin hər biri bilirdilər ki, əski ədəbiyyatda yuxarı təbəqələrə xidmət etsə də xalq həyatından, xalq təfəkkürünün süzgəcindən keçən onun mənəvi aləminə nüfuz edən ədəbi vasitələr da olmuşdur. Klassik ədəbiyyatın ifadə gözəlliyinə, obrazlarının “güldən, bülbüldən” ibarət olmasını isə tənqidçilər yuxarı sinfin zövqü ilə əlaqələndirirdilər. Bu , sovet ideologiyasına xidmət vasitəsi olmaqla yanaşı, bədii yaradıcılığın bəsit, birtərəfli təhlilinə gətirib çıxarırdı. Nəticə etibarilə humanitar düşüncə sahəsində digər demokratik ölkələrdən fərqli olaraq durğunluq, gerilik özünü bariz şəkildə büruzə verdi. Ədəbiyyatşünaslıq elmi ilk növbədə öz dövrünün bədii fikri ilə, müasiri olduğu sənətkarların sovet ideologiyasına mənsub əsərləri ilə xüsusi bir pafosla fəxr etməyə köklənmişdi. Lakin bu fəxarət müasir ədəbiyyatın estetik kökləri ilə əlaqəsini görməyə, onun milli səciyyəsini dərk etməyə mane olurdu. Məhz ədəbiyyat milli xarakter haqqında geniş və hərtərəfli təsəvvür yaratmaq imkanına malikdir. Əli Nazim klassik dövr ədəbiyyatının ümumiyyətlə təsəvvüfdən irəli gedə bilməməsində günahlandırırdı., M.F. Axundova “bizdə rus mədəniyyətinin bir əksi” olaraq dəyərləndirirdi. M.F. Axundovun rus mədəniyyətinin təsirini qabardıb onun milli ictimai gerçəkliyin təcəssüm xüsusiyyətlərini, ədəbi inkişafda rolunu isə görməzdən gəlirdi. Məlumdur ki, Axundov klassik ədəbiyyatına, o cümlədən Şərq poeziyasına dəfələrlə müraciət etmiş, onu öyrənməyin və tədqiq etməyin zəruriliyini vurğulamışdır. Məlumdur ki, XX əsrin

əvvəllərində ədəbi prosesdə gedən inkişafda "Füyuzat" və "Molla Nəsrəddin" ədəbi məktəbinin əlahiddə rolu olmuşdur. M.Ə. Sabirin poeziyası ədəbiyyatda yeni inkişaf təmayüllərini yaratdı. Abbas Səhhətin yeni şeirin müdafiəsinə həsr olunan məqalələri var idi. Milli ədəbiyyatın bu istiqamətdəki inkişafı 1920-ci illərin tənqidinə yaxşı məlum idi. Lakin Sovet ideologiyasının kəskin təzahürü kontekstində ədəbi irsi inkar etməkdən başqa çarə qalmırdı. Bu ideologiya ədəbi irsimizin öyrənilməsinə, tədqiqinə, milli təfəkkürün formalaşmasına kəskin zərbə vurduğu kimi, bu ideologiyaya xidmət edən insanların, o cümlədən yuxarıda adını çəkdiyimiz ədəbiyyatşünas alimlərin, ədəbi tənqidçilərin də repressiya dövründə həyatlarına son qoydu. Onların bəziləri edam cəzasına, bəziləri sürgün həyatına məruz qaldılar. Vaxtilə proletar mədəniyyət yaratmağa qulluq edərək müxtəlif köhnə ideologiyaya qulluq edən, cığırdaş hesab olunan sənətkarların "təmizlənməsinə" fitva verən ideoloqlar də sovet ideologiyası tərəfindən həyat səhnəsindən silindi.

**Ədəbiyyat**


1. Народное образование Азербайджана 1920-27 гг. Баку: Изд. НКП, 1928, 177 с.183. Наука в АССР за 15 лет.
2. "Бакинский рабочий", 1922, 15 июнь.
3. Vəzirov N.B. Əsərləri, II cild, Bakı.
4. Quliyev M. Köhəlik əleyhinə, "Kommunist", 14 noyabr, 1928-ci il.
5. Marks K., Engels F. Seçilmiş əsərləri, iki cilddə I c. Bakı , 1953.
6. Fikrət X. Sənət, Maarif və mədəniyyət, 1923, №10.
7. Rüstəm S. Mübarizə yollarında "Ədəbiyyat və incəsənət " , 27 yanvar, 1957-ci il.